

# AZƏRBAYCAN ŞƏFFAFLIQ TƏRƏFDAŞLIĞI (AŞT) LAYİHƏSİ

## VƏTƏNDAŞ CƏMİYYƏTİNİN KORRUPSİYAYA QARŞI MÜBARİZƏYƏ CƏLB EDİLMƏSİ

## I. VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İMKANLARININ ÖYRƏNİLMƏSİ İLƏ BAĞLI TƏDQİQAT

## II. QHT-LƏRIN ƏMƏKDAŞLIQ PLATFORMASININ STRATEGİYA SƏNƏDİ

**Şəffaflıq Azərbaycan tərəfindən dərc edilmişdir.**

**2013, iyul**

## Layihə haqqında

Şəffaflıq Azərbaycan 4 il müddət ərzində Azərbaycan Şəffaflıq Tərəfdaşlığı (AŞT) layihəsi çərçivəsində korrupsiyaya qarşı mübarizə istiqamətində vətəndaş cəmiyyətinin rolunu gücləndirmək, eləcə də Azərbaycan Hökumətini onun anti-korrupsiya strategiyasının xüsusi əhəmiyyət kəsb edən sahələrində və Açıq Hökumət Təşəbbüsü istiqamətində üzərinə götürdüyü öhdəliklərin icrası prosesini dəstəkləməkdir. ŞT Layihəsinin başlıca məqsədi vətəndaş cəmiyyətini şəffaflığın artırılması və korrupsiyanın azaldılması istiqamətində fəaliyyətini daha da effektiv etməkdir.

Azərbaycan Şəffaflıq Tərəfdaşlığı layihəsi Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) vasitəsilə Amerikan Xalqının dəstəyi əsasında baş tutmuşdur. Məzmuna görə "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi məsuliyyət daşıyır və USAID və ya Birləşmiş Ştatların mövqeyni əks etdirməyə bilər.

## Minnətdarlıq

Şəffaflıq Azərbaycan bu hesabatın ərsəyə gəlməsində göstərdikləri dəstəyə görə hökumət və qeyri-hökumət təşkilatıların nümayəndələrinə öz təşəkkürünü bildirir. Layihə heyəti həmçinin Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Layihəsi tərəfdaşlarına, həmçinin sorğuda iştirak edən, xüsusən QHT Platformasına qoşulan QHT-lərə öz təşəkkürünü bildirir. ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Azərbaycan bölməsinə AŞT layihəsinə və ŞA təşkilatına göstərdiyi davamlı və qiymətli dəstəyinə görə xüsusi minnətdarlığımızı bildiririk.

©Müəlliflik hüququ ŞA təşkilatına aiddir, İyul 2013-cü il

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ** | |
| I. | **VƏTƏNDAŞ CƏMIYYƏTININ IMKANLARININ ÖYRƏNILMƏSI ILƏ BAĞLI TƏDQIQAT** | **3** |
| *A.* | *ÜMUMI QEYDLƏR* | **5** |
| *B.* | *METODOLOGIYA* | **7** |
| *C.* | *TƏDQIQATIN STRUKTRU* | **9** |
| *D.* | *QƏNAƏTLƏR* | **9** |
| *E.* | *NƏTICƏ* | **24** |
| *F.* | *TÖVSIYƏLƏR* | **28** |
| *G.* | *QHT-LƏRIN TƏLIM EHTIYACLARI* | **30** |
| **ƏLAVƏ 1.** | **SORĞU ANKETI** | **32** |
| **ƏLAVƏ 2.** | **QHT-LƏRIN ƏLAQƏ VASITƏLƏRININ SIYAHISI** | **37** |
| **ƏLAVƏ 3.** | **RESPONDENTLƏRIN MƏLUMAT BAZASI** | **38** |
| **ƏLAVƏ 4.** | **SORĞUNUN SINAQ MƏRHƏLƏSINDƏ IŞTIRAK EDƏN QHT-lərin SİYAHISI** | **49** |
| **ƏLAVƏ 5.** | **ƏDƏBIYYAT** | **50** |
| II. | **QHT PLATFORMASI ÜÇÜN STRATEGIYA** | **53** |
| **ƏLAVƏ 1.** | **PLATFORMANIN FƏALIYYƏT QAYDALARI** | **62** |
| **ƏLAVƏ 2.** | **PLATFORMANIN TƏSIS MEMORANDUMU** | **64** |
| **ƏLAVƏ 3.** | **PLATFORMAYA DƏVƏT OLUNAN QHT-LƏR** | **66** |
| **ƏLAVƏ 4.** | **ƏDƏBIYYAT** | **71** |

# AZƏRBAYCAN ŞƏFFAFLIQ TƏRƏFDAŞLIĞI LAYİHƏSİ

## VƏTƏNDAŞ CƏMİYYƏTİNİN KORRUPSİYA ƏLEYHİNƏ FƏALİYYƏTƏ CƏLB OLUNMASI

## I. GİRİŞ

Bu tədqiqat işi Şəffaflıq Azərbaycan təşkilatının təşəbbüsü ilə həyata keçirilən Azərbaycan Şəffaflıq Tərəfdaşlığı layihəsi çərçivəsində baş tutmuşdur. Vətəndaş cəmiyyətinin ehtiyacları, dinamikası və xarakterik xüsusiyyətlərini dərindən tədqiq etməklə səmərəli şəbəkə strategiyasını formalaşdırmaq, habelə dövlətlə dialoq müstəvisində QHT-lərin böyük hissəsini korrupsiya əleyhinə mübarizəyə cəlb etmək mümkündür.[1]

Azərbaycanda korrupsiyanın yüksək səviyyədə olması, neft gəlirlərinin qeyri-bərabər bölgüsündən yaranan narazılıq artmaqdadır.[2] Siyasət quruculuğunda, o cümlədən korrupsiya əleyhinə siyasətin formalaşdırılmasında vətəndaş cəmiyyəti institutlarının cəlb olunmasının vacibliyi dəfələrlə qeyd edilsə də, təssüflər olsun ki, indiyə kimi vətəndaş cəmiyyətinin böyük hissəsi siyasi qərarların qəbul olunmasına cəlb olunmamışdır. Tədqiqatlar göstərir ki, rəsmi qeydiyyatdan keçən QHT-lərin yalnız 20 %-i hökumət qərarlarına hansısa formada təsir etməyə səy göstərirlər[3].Vətəndaş cəmiyyətinin zəif və parçalanmış[4] olmasına baxmayaraq, kifayət qədər tanınmış QHT-lər mütəmadi olaraq ictimai əhəmiyyətli məsələlərdə qərar qəbulu prosesinə öz yanaşma və səyləri ilə töhfə verməkdədirlər.[5]

Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində çalışan vətəndaş cəmiyyəti institutlarının başlıca məqsədi nədir? Onlar nə qədər çoxşaxəli və təsirlidirlər? Azərbaycan vətəndaş cəmiyyəti sosial problemlərə qarşı öz etirazlarını bildirməkdə nə qədər fəaldır? Ümumilikdə vətəndaş cəmiyyəti institutlarının bugünkü vəziyyətini birmənalı qiymətləndirmək çətindir. Bir tərəfdən vətəndaş cəmiyyəti institutlarına təzyiqlər artmış[6], eləcə də vətəndaş cəmiyyəti mühiti pisləşmiş[7], digər tərəfdən isə

---

[1] World Movement for Democracy Secretariat at the National Endowment for Democracy (NED) and International Center for Not-for-Profit Law (2009), Defending Civil Society Toolkit. http://www.defendingcivilsociety.org

[2] The Impact of the Oil and Gas Revenues to Social Tensions, case of Azerbaijan Baku – 2010, by Ingilab Ahmadov, Kanan Aslanli, Rasim Musabeyov, Public Finance Monitoring Center with the support form Friedrich Ebert Foundation, www.pfmc.az

[3] The EU's policy towards Azerbaijan: what role for civil society? SPES Policy paper, by Katrin Böttger/Mariella Falkenhain, June 2011, http://www.iep-berlin.de/

[4] Civil Society in the Caucasus: Myth and Reality By Jonathan Wheatley, Zurich, Abstract, Caucasus Analytical Digest No 12, 22 January 2010 www.res.ethz.ch

[5] In particular, members of the Information and Cooperation Network of Anti-corruption NGOs, www.anticornet.az

[6] CIVICUS: World Alliance for Citizen Participation condemns bullying tactics by the Azerbaijan government to silence civil society organizations (CSOs), Johannesburg. 28 February 2012, http://civicusalpha.org

[7] We need international civil society to stand in solidarity, Interview of Dr Leila Alieva, President of the Center for National and International Studies (CNIS) in Baku, Azerbaijan, to CIVICUS, 28 February 2012, http://civicusalpha.org

hökumət eləcə də Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı və Açıq Hökumət Tərəfdaşlığı Fəaliyyət Planını[8] qəbul etməklə dövlət institutları ilə vətəndaş cəmiyyəti arasında əməkdaşlıq üçün yeni imkanlar açmışdır. Uğurlu nümunə kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi və ASAN xidməti nəzdində yaradılmış İctimai Şuralar, Korrupsiyaya qarşı Mübarizə Komissiyasının Qanunvericiliyin təkmilləşdirilməsi üzrə işçi qruplarını misal göstərmək olar. Oxşar mexanizmlər[9] digər dövlət qurumlarında da yaradılmışdır. Nəzərə alsaq ki, Azərbaycan QHT-lərinin digər postsovet ölkələrində olduğu kimi, "ölkədə sosial dəyişikliklər üçün vahid strategiyası yoxdur"[10], bu tədqiqat işi öz növbəsində Azərbaycanda vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizə aparan müəyyən seqmenti üçün bu sahədə atılmış ilk addımdır.

**Başlıca məqsəd** Vətəndaş Cəmiyyəti İnstitutlarının, başqa sözlə qeyri-dövlət aktorların hökumət tərəfindən icra edilən korrupsiya əleyhinə inkişaf strategiyası və islahatların təkmilləşdirilməsinə cəlb etməkdir.

Apardığımız tədqiqatın iki alt-məqsədi vardır və bu da öz növbəsində korrupsiya məsələsi ilə bağlı iki müxtəlif istiqamət üzrə nəticələr gözləməyə imkan verir.

**Alt-məqsəd 1- *Korrupsiya sahəsində çalışan və çalışmağı nəzərdə tutan QHT-lərin imkanlarını öyrənmək***

Bu alt-məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- **Vəzifə 1.***Korrupsiyaya qarşı mübarizə istiqamətində hal-hazırda çalışan və çalışmaq istəyən QHT-lərin siyahısını tərtib etmək;*
- **Vəzifə 2.***Korrupsiyaya qarşı mübarizə istiqamətində çalışan və ya çalışmağı nəzərdə tutan QHT-lərin zəif və güclü tərəflərini müəyyənləşdirmək.*

"Şəffaflıq Azərbaycan" (ŞA) birinci alt-məqsədə"QHT-lərin imkanlarının öyrənilməsi" ilə bağlı tədqiqat işini həyata keçirilməklə nail olmuşdur. Nəticədə:

- Uyğun QHT-lərin sayı müəyyənləşdirilib;
- Onların güclü və zəif tərəfləri təhlil olunub.

**Alt-məqsəd 2 - *Daha çox QHT-ləri anti-korrupsiya fəaliyyətinə cəlb etmək***

- **Vəzifə 1.***Korrupsiyaya qarşı mübarizə sahəsində uyğun və maraqlı QHT-ləri səfərbər etmək üçün koalisiyanın qurulma strategiyasını hazırlamaq;*
- **Vəzifə 2.***Hazırlanmış strategiyaya uyğun olaraq Azərabaycan regionlarının, gənclərinin, qadınların və başqa həssas qrupların da maraqlarını təmsil etmək iqtidarında olan geniş koalisiya yaratmaq;*

[8] Approved by Presidential decree dated 5 of September 2012, www.president.az
[9] TA has received an invitation to sit on similar Councils at the State Social Protection Fund and Ministr of Taxes planned to be established.
[10] Mapping civil society of Belarus. Briefing Paper by Andrei Yahorau, Andrei Shutau, Center for European Transformation, June, 2012 http://cet.eurobelarus.info/by/

- **Vəzifə 3.** *Hökumət-vətəndaş cəmiyyəti dialoqu əsasında müzakirələr təşkil etmək və anti-korrupsiya islahatlarını həyata keçirmək üçün QHT-lərin koalisiyası adından təkliflər hazırlamaq və təqdim etmək.*

İkinci alt-məqsədin reallaşdırılması üçün nəzərdə tutulan tədbirlər Koalisiyanın Strategiya sənədinin tərkib hissəsi olan Fəaliyyət Planında göstərildiyi kimi həyata keçiriləcək və koalisiyanın gələcəkdəki hesabatlarında öz əksini tapacaqdır. Nəticədə:
- Ölkədə korrupsiya əleyhinə regionların, gənclərin, qadınların və başqa həssas qrupların da maraqlarını təmsil etmək iqtidarında olan geniş koalisiya yaradılacaq.
- Vətəndaş cəmiyyətinin təkliflərini nəzərə almaqla hökumətə konsensus əsaslı tövsiyələr veriləcək və hökumətin 2012-2015-ci illər üzrə Korrupsiya əleyhinə Milli Fəaliyyət Planı və Açıq Hökumət Təşəbbüsü üzrə Fəaliyyət Planı çərçivəsində götürdüyü öhdəliklərin icrasının vəziyyəti ilə bağlı monitorinq hesabatların təqdimatı üçün mütəmadi olaraq ildə ən azı iki dəfə koalisiyanın tədbirləri təşkil olunacaqdır. ŞA tədbirlərin nəticələrini koalisiyanın adından müvafiq dövlət qurumlarına təqdim edəcəkdir.

***Alt-məqsəd 3. QHT-lərə institutsional yardım***

**Vəzifə 1.** *QHT-lərin ehtiyaclarını müəyyənləşdirmək və QHT-lərə təlimlər vermək;*
**Vəzifə 2.** *QHT-lərin ehtiyaclarını daha yaxşı anlamaq üçün donorları məlumatlandırmaq.*

Nəticədə: Vətəndaş cəmiyyətini gücləndirmək üçün ŞA tərəfdaş təşkilatlara, o cümlədən anti-korrupsiya sahəsində çalışan digər QHT-lərə qazandığı daxili menecement və maliyyə prosedurları ilə bağlı bacarıqlarını bölüşmək üçün təlimlər təşkil edəcəkdir. Təlimlər sorğunun nəticələrini nəzərə alaraq təşkil olunacaqdır.[11]

## II. VƏTƏNDAŞ CƏMIYYƏTININ IMKANLARININ ÖYRƏNILMƏSI

### A. ÜMUMI HISSƏ

#### Tədqiqatın əsaslandırılması

Bu tədqiqata ehtiyac aşağıdakı səbəblərdən doğmuşdur:
- Yerli vətəntdaş cəmiyyəti subyektlərinin institutsional inkişafı üçün mövcud beynəlxalq təcrübədən (siyasət təklifləri, təlimatlar) az məlumatlı olması və məhdud çərçivədə faydalanması;
- QHT-lər arasında səmərəli koordinasiya və uyumla bağlı mövcud məhdudiyyətlər;
- Vətəndaş cəmiyyətinin uzunmüddətli institutsional inkişafını dəstəkləyəcək adekvat strategiya və vasitələrin olmaması;
- Ölkədə yaxşı idarəetməni dəstəkləmək üçün inteqrativ strategiyaların (hökumətlə vətəndaş cəmiyyəti arasında) olmaması.

#### Tədqiqat obyektinin tərifi

Adətən QHT sektoru vətəndaş cəmiyyətinin bir komponenti kimi nəzərdən keçirilir. Bu günə qədər vətəndaş cəmiyyəti və QHT anlayışlarının bir sıra tərifləri verilmişdir.

[11] TA will first seek advice and guidance from the BLCD project's experts on how to strengthen the institutional strengthening and capacity building efforts for itself, its partners and trainees

Ümumilikdə isə vətəndaş cəmiyyəti ailə institutu ilə dövlət institutu arasında qeyri-kommersiya fəaliyyəti göstərən bir institutdur.[12] BMT-nin tərifinə əsasən "QHT gəlir əldə etmək üçün yox, əsasən ictimai maraqlar naminə sosial problemlərə qarşı mübarizə aparmaq üçün lokal, milli və beynəlxalq səviyyədə yaradılmış könüllü vətəndaş qrupudur" [13] Nəticə etibarilə vətəndaş cəmiyyəti anlayışı QHT analyışından daha genişdir[14], bu tədqiqatda isə vətəndaş cəmiyyəti və QHT anlayışları bir qayda olaraq eyni mənada istifadə ediləcəkdir.

**Tədqiqata Yanaşma**

Vətəndaş cəmiyyətinin imkanlarını öyrənmək hər hansı ölkədə əsas QHT-lərin (ya da QHT-lərin müəyyən seqmentinin) ictimai inkişaf prosesinə necə cəlb olunduğunu anlamaq üçün aydınlaşdırıcı bir tədqiqat işi kimi xarakterizə oluna bilər. Bu işdə məqsəd cəmiyyətin siyasi, sosial, institutsional sferasında QHT-lərin rolunu və vəzifəsini, həmçinin onların güclü və zəif tərəflərini aydınlaşdırmaqdır ki, onların sosial həyata təsir imkanları aydın müəyyən edilsin.

Bu günə kimi, Azərbaycanda yerli[15] [16]iki QHT və bir beynəlxalq ekspert[17] tərəfindən QHT-lərin imkanlarının öyrənilməsi ilə bağlı tədqiqat işləri aparılmışdır. Bu tədqiqat işinin davam etdirilməsi beynəlxalq və yerli ekspertlər tərəfindən gündəmə gətirilmişdir[18]. Xüsusən, korrupsiya sahəsində işləyən və ya işləməyi planlaşdırılan QHT-lərin imkanlarının öyrənilməsi indiyə kimi tədqiqat predmeti olmamışdır.

**Nəzəri Metodologiya**

Bu tədqiqat üçün nəzərdə tutulan metod yüz QHT arasında aparılan sorğudur. Bu sorğu həmçinin elmi ədəbiyyatların təhlili ilə müşaiyət olunacaqdır. Nəzərə almaq lazımdır ki, bu tədqiqat CİVİCUS təşkilatı tərəfindən hazırlanan Vətəndaş Cəmiyyəti İndeksinin (Civil Society İndex) metodologiyasına əsaslanmışdır. Bununla bərabər metodologiya APT (Azərbaycan Şəffaflıq Tərəfdaşlığı) layihəsinin ehtiyaclarına və tədqiqatın məqsədlərinə uyğunlaşdırılmışdır.

---

[12] Visualizing Civil Society through Mapping NGOs, by Mai-Lan Ha, Christy Helbing, Tomoko Inagaki, Rahul Lahoti, May 2007, http://sipa.columbia.edu

[13] United Nations Department of Public Information, http://www.un.org/dpi/ngosection/criteria.asp

[14] Mapping Political Context: A Toolkit for Civil Society Organizations, by Robert Nash, Alan Hudson and Cecilia Luttrell, July 2006 http://www.odi.org.uk

[15] Civil society in Azerbaijan: Challenges and Opportunities in Transition, CIVICUS Civil Society Index Report for Azerbaijan An international action-research project coordinated by CIVICUS: World Alliance for Citizen Participation, by Rajab Sattarov, Tair Faradov and Ilham Mamed-zade, International Center for Social Research (ICSR), December 2007, https://civicus.org/

[16] On the Assessment of the Organizational and Management Capacity of NGOs in Azerbaijan, Emin Amrullayev, Democracy Learning Public Association February 2012, www.dlpu.az

[17] Mapping of Civil Society Organizations in Azerbaijan, Final report October 2010 by Christine Leiser, IBF International Consulting for European Union, Letter of Contract No 2010/239233/1 www.oneglobalexpert.com

[18] The Azerbaijan Social Review Commission Fifth Report, by David Rice et al, August 2011, www.bp.com/liveassets

**Vətəndaş cəmiyyəti İndeksi**

Vətəndaş Cəmiyyəti İndeksi dünyanın 100-ə yaxın[19] vətəndaş cəmiyyəti institutlarını özundə birləşdirən CİVİCUS təşkilatı tərəfindən hazırlanmışdır. İndeksin məqsədi vətəndaş cəmiyyətinin davamlılığı və gücünü artırmaq, nəticədə onların müsbət sosial dəyişikliklərə töhfəsini gücləndirməkdir. İndeksi standart meyar kimi səhiyyə və vətəndaş cəmiyyəti institutlarının imkanlarını qiymətləndirmək üçün də istifadə olunur.Bu indeks aşağıdakı komponentlərdən ibarətdir:

- **Məkan\ mühit**- siyasi kontekst, fundamental hüquq və azadlıqların təminatı, sosial-iqtisadi mühit, sosial-mədəni mühit.
- **Struktur:** Vətəndaş iştirakçılığının miqyası, vətəndaş cəmiyyətinin müxtəlifliyi, təşkilatlanma səviyyəsi, təşkilatlar arası münasibətlər, resurslar.
- **Dəyərlər:** demokratiya, şəffaflıq, tolerantlıq, qeyri-zorakılıq, gender bərabərliyi, yoxsulluğun ləğvi, ekoloji davamlılıq.
- **Təsir:** Dövlət siyasətinə təsir, dövlət və özəl təşkilatların hesabatlılığının təmin edilməsi, sosial ehtiyaclara cavab vermək, vətəndaşların gücləndirlməsi.

## B. METODOLOGIYA

**(1)** *Mövcud sənəd və hesabatların nəzərdən keçirilməsi*
Tədqiqatçı heyətimiz dünyada və Azərbaycanda vətəndaş cəmiyyəti məsələləri ilə bağlı məqalə və tədqiqat hesabatlarını müəyyənləşdirmiş və toplamışdır. (Zəhmət olmasa Əlavə 1-ə baxın)

**(2)** *İlkin müsahibələr*
Tədqiqatçı heyətimiz QHT-lərin Anti-korrupsiya şəbəkəsinin üzvləri və APT layihəsinin tərəfdaşları, eləcə də vətəndaş cəmiyyətinin geniş spektrini təmsil edən digər ixtisaslaşmış QHT-lərin də daxil olduğu İlkin Əlaqə (kontakt) siyahısını (Zəhmət olmasa Əlavə 2-ə baxın) tərtib etmiş və QHT nümayəndələri və donorların vətəndaş cəmiyyəti sahəsində təcrübəli olan ekspertləri ilə bir sıra müsahibələr təşkil etmişdir. Bu müsahibələr telefon, elektron poçt vasitəsilə və üz-bəüz aparılmışdır. İlkin müsahibələr digər QHT-lər barəsində də məlumat toplamağa imkan vermişdir.

**(3)** *Uyğun təşkilatları müəyyənləşdirmək və əlaqə saxlamaq*
Bir sıra həmkar təşkilatlarla məsləhətləşmələr, internet axtarışı, dəvət çağırışları ŞA facebook və veb səhifəsində yerləşdirilmiş, eləcə də QHT-lərin yahoo qrupuna göndərilmiş, daha sonra dəvət Korruspiyaya qarşı QHT şəbəkəsinə, Milli Büdcə Qrupu, APT layihəsi çərçivəsində ŞA təşkilatının tərəfdaşlarına ünvanlanmış, sonda isə tədqiqat heyəti yekun potensial kontakt siyahısını müəyyənləşdirə bilmişdir. Heyətimiz ilkin əlaqə siyahısını sorğu üçün respondentlərin məlumat bazasına çevirmişdir. (Zəhmət olmasa Əlavə 3-ə baxın)

İlkin əlaqə siyahısında olan QHT-lər ilə telefonla əlaqa saxlanılaraq onların əlaqə ( kontakt ) məlumatları yoxlanılmış, yeri gəldikcə dəqiqləşdirilmişdir. Hər hansı QHT-nin ilkin əlaqə məlumatlarını birbaşa yoxlamaq mümkün olmadıqda, onda digər QHT-lər

[19] Civil Society Index, Country Report for Azerbaijan, 2009, www.civicus.org;

vasitəsi ilə yoxlanılmışdir. Bu iki haldan heç biri mümkün olmadıqda, həmin QHT ilkin kontakt siyahısından çıxarılmışdır. Digər tərəfdən, siyahımızda yer almayan bəzi QHT-lər öz təşəbbüsləri ilə sorğuda iştirak etməyə razılıq vermişdir. (Xahiş olunur Əlavə 3 – Respondentlərin məlumat bazası-na baxın)

**(4)** *Maraqlı tərəflərin təhlili*
Dövlət qurumlarının ehtiyaclarını və onların QHT-lərdən gözləntilərini müəyyənləşdirmək, həmçinin Koalisiyanın gələcəkdə hökumətlə əməkdaşlığı necə gördüyünü qarşı tərəfə çatdırmaq üçün, Nazirlər Kabinetinə və Korrupsiyaya qarşı mübarizə Komissiyasına məktublar ünvanlanmışdır.

**(5)** *Sorğu anketinin layihə variantı*
Tədqiqat çərçivəsində sorğu anketinin layihə variantı tamamlanmışdır. Anketin strukturu CİVİCUS və Human European Consultancy [20] təşkilatları tərəfindən hazırlanmış və istifadə edilən anketin strukturu əsasında hazırlanmışdır. Layihə heyəti bəzi sualları seçmiş və bəzi sualları da layihənin tələblərinə və yerli kontekstə uyğunlaşdırmışdır, həmçinin yeni suallar əlavə etmişdir.

**(6)** *Sınaq mərhələsi*
Anketin layihə variantı işlənib hazırlandıqdan sonra ilkin müsahibələr zamanı ortaya çıxmış bəzi nüansları da nəzərə almaqla anketin layihə variantı 8 QHT-arasında təşkil edilmiş müsahibələr yolu ilə sınaqdan keçirilmişdir. Müsahibələr telefon və yazılı şəkildə təşkil edilmişdir. (Xahiş olunur Əlavə 4 – Sınaq mərhələsinə cəlb olunmuş QHT-lərinin siyahısı-na baxın)

**(7)** *Sorğu*
Anketin son versiyası (Xahiş olunur Əlavə 5-ə baxın) sınaq mərhələsi nəticəsində toplanmış rəylər əsasında daha da inkişaf etdirilərək tamamlanmış, sonda isə Survey Monkey proqramı vasitəsilə elektron sorğu anketi hazırlanmışdır. Respondentlərin məlumat bazasında olan QHT-lərlə mail və telefonla əlaqə saxlanılmış, daha sonra isə mail vasitəsi ilə elektron sorğuda iştirak etmək üçün dəvət göndərilmişdir.

**(8)** *Keyfiyyət nəzarəti*
İnternet resursları yoxlanılmış, onlayn sorğuda iştirak etməyən QHT-lərlə əlaqə saxlanılmış, onlardan onlayn sorğuda iştirak etmək və ya mail ilə suallara cavab vermək xahiş edilmişdir. ŞA tədqiqat heyəti üç haldan birində (35/100) bəzi QHT-lərin elektron poçt vasitəsi ilə doldurulmuş anketlərini elektron sorğu bazasına yerləşdirmişdir. Respondentlərin məlumat bazası respondentlərin faktiki iştirakçılıq səviyyəsini göstərməyə imkan verir. (Xahiş olunur Əlavə 3-ə baxın).

**(9)** *Təhlil*
Nəticələr elektron qaydada toplanıb ŞA heyəti tərəfindən təhlil olunmuş və sonda nəticələr ilə birlikdə hesabat hazırlanmışdır.

[20] Dealing with Anti-discrimination in the New Member States, Romania, Bulgaria and Turkey: Mapping capacity of civil society dealing with anti-discrimination, by Human European Consultancy in partnership with Migration Policy Group, September 2006, http://www.migpolgroup.com

**(10)** *Məhdudiyyətlər*

Layihə heyəti APT layihəsi çərçivəsində bu tədqiqat işini gələcəkdə də davam etdirəcəkdir. Onu da qeyd edək ki, bu tədqiqat çərçivəsində məlumatların toplanması və təhlili prosesində bir sıra məhdudiyyətlərlə üzləşdik. Xüsusən ŞA-nın fəaliyyət göstərmədiyi regionlarda sorğunu keçirmək üçün müəyyən məhdudiyyətlər olmuşdur. Tədqiqatımıza başqa bir məhdudiyyət isə müsahibə üçün seçdiyimiz QHT-lərlə bağlı yaranmışdır. Belə ki, regionlarda fəaliyyət göstərən bəzi QHT-lərə çıxış imkanları məhduddur. Qeydiyyatdan keçmələrinə və internet məkanında müəyyən əlaqə vasitələri yerləşdirmələrinə baxmayaraq, onlarla əlaqə saxlamaq mümkün olmamışdır. Odur ki, biz ŞA-nın mərkəzlərinin yerləşdiyi regionlarda fəaliyyət göstərən QHT-ləri sorğu prosesinə cəlb etmişik.

**(11)** *İlkin qənaət*

İlk qənaətimiz ondan ibarətdir ki, QHT-lər öz fəaliyyəti haqqında daha geniş məlumat yaymaqda maraqlıdır. Digər bir qənaətimiz ondan ibarətdir ki, QHT-lər əlaqə yaratmaq və birgə çalışaraq cəmiyyətə yaxşı təsir etmək niyyətindədirlər.

## C. TƏDQIQATIN STRUKTURU

Aşağıdakı tədqiqat strukturu CİVCUS vətəndaş cəmiyyəti indeksi əsasında hazırlanmış 4 sual blokundan ibarətdir: 1. Mühit 2. Struktur 3. Dəyər 4. Təsir.

## D. TƏDQIQATIN NƏTICƏLƏRI

### 1. MÜHIT

Vətəndaş Cəmiyyəti İnistitutlarının fəaliyyəti üçün ölkənin siyasi durumdan asılı olaraq öz missiyalarını həyata keçirmək üçün nə qədər azad məkan vardır? "Hal-hazırda dünyada QHT-lərin fəaliyyəti üçün mövcud şərait keçmişə nisbətdə daha az əlverişlidir"[21] **International Institute for Non-Profit Law**[22] təşkilatının araşdırmalarına görə dünyada QHT və vətəndaş cəmiyyətinin azad fəaliyyətini məhdudlaşdıran hüquqi maneələr artmaqdadır. Dünyada müşahidə edilən bu tendensiya Azərbaycan üçün də aktualdır.

### 1.1. Ümumi siyasi mənzərə

Azərbaycanın zəngin karbohidrogen resursları və maliyyə ehtiyatlarına malik olmasına baxmayaraq, ölkədə hələ də ciddi korrupsiya problem qalmaqdadır. 2012-ci il Korrupsiya Qavrama İndeksinə[23] görə Azərbaycan 27 xal (100 xallıq şkala ilə) ilə 176 ölkə arasında 139-cu yeri tutmuşdur ki, bu da ötən illərə nisbətdə irəliyə doğru az dəyişiklik deməkdir. Digər tərəfdən, Azərbaycan Respublikasının Prezidentinin

---

[21] Quotation by Lisa Jordan, Ford Foundation from Visualizing Civil Society through Mapping NGOs, May 2007, by Mai-Lan Ha, Christy Helbing, Tomoko Inagaki, Rahul Lahoti, of the School of International and Public Affairs at Columbia University, for The Institute for a New Reflection on Governance http://sipa.columbia.edu

[22] Global Trends in NGO law, on-line quarterly journal by Center for Non-profit Law, www.icnl.org, 2009-2013

[23] Transparency International Corruption Perception Index 2012, www.transparency.org

inhisarçılığın ləğvi və azad bazar iqtisadiyyatının yaradılması ilə bağlı çıxışı 2011-ci ildən etibarən korrupsiyaya qarşı mübarizəyə yeni təkan vermişdir. O dövlət orqanlarını süni qiymət artımına qarşı tədbirlər görməyə, bazar subyektlərinə lüzumsuz audit və təftiş yoxlamalarını dayandırmağa, vergi yayınmalarına qarşı tədbirlər görməyə və həmçinin korrupsiyaya qarşı sistemli mübarizə aparmağa çağırmışdır. Sonda o hökuməti ictimai etibarı qazanmaq uğrunda çalışmağa dəvət etmişdir.[24] Bu məqsədə çatmaq üçün əhaliyə 25 növ xidmət göstərən 9 dövlət qurumunun nümayəndəliyinin təmsil olunduğu[25], operativ və səmərəli xidmətin təşkil edildiyi ASAN xidmətininin 3 mərkəzi Bakıda və Sumqayıtda açılmış (4-cü isə avqustda açılacaqdır), eləcə də 2012-2015-ci il üzrə Korrupsiya qarşı Milli Fəaliyyət Planı və 2012-2015-ci il üzrə Açıq Hökumət Təşəbbüsü üzrə Milli Fəaliyyət Planın[26] qəbul edilmişdir. Bütün bunlara baxmayaraq, korrupsiya cəmiyyətə çox dərin nüfuz etmiş vəziyyətdədir, hətta əhalinin yarısından çoxu dövlət orqanlarında korrupsiyanın ciddi problem olduğunu qəbul edirlər.[27]

Fundamental azadlıqlara ciddi məhdudiyyətlər və insan haqqlarının sistemli pozulması beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları üçün narahatlıq doğuran məsələlərdəndir. Ölkədə demokratiyanın vəziyyətinin pisləşməsi Freedom House təşkilatı tərəfindən də təsdiqlənmişdir. (Azərbaycanda demokratiyanın vəziyyəti 2012-ci il üçün 1- 7 şkala əsasında 6.57 xal ilə qiymətləndirilmişdir.)[28]

Hüquq mühafizə orqanlarının fəaliyyəti heç də həmişə ictimai maraqlarla üst-üstə düşmür.[29] Məhkəmə hakimiyyəti isə böyük ölçüdə icra hakimiyyətinin nəzarəti altındadır. Zəif idarəetmə, məhkəmə sisteminə ictimai etibarın az olması məhkəmə sisteminin nümayəndələri tərəfindən də təsdiqlənir.[30]Məhkəmə qərarlarının icrası da böyük problem olaraq qalmaqdadır.[31]

Bir çox hökumət rəsmiləri VCİ-nın fəaliyətinin genişləndirlməsinə az maraq göstərirlər və bir çox hallarda dövlət orqanları QHT-lər əməkdaşlıq etməkdən yayınırlar. Hökumət mövcud vəziyyəti düzəltmək üçün dövlət orqanlarına QHT-lərlə işləmək[32] və Dövlət sosial sifarişi haqqında qanunun[33] tələblərinə uyğun olaraq dövlət orqanlarını QHT-ləri bir sıra tenderlərə dəvət etməyə çağırmışdır. Dövlət Sosial Sifarişi haqqında qanunun

---

[24] Speech of the President Ilham Aliyev at the extended meeting of the State Anti-Corruption Commission, convened on 27 January 2011 and President's speech at the 14 January 2011 Cabinet of Ministers meeting, www.525.az.
[25] See more at www.asan.az
[26] Both Action Plans were approved by the presidential decree of 5 September 2012 and are available at www.president.az
[27] Global Corruption Barometer 2013, by Transparency International, www.transparency.org
[28] Nations in Transit: 2012 Country Report for Azerbaijan, by Freedom House, available at http://www.freedomhouse.org
[29] Data base on Advocacy and Legal Advice Centers in Baku, Ganja, Quba and Legal Resource Centers in Ganja, Sheki and Lenkoran run by Transparency Azerbaijan since March 2005, see more at www.transparency.az
[30] Interview of chairman of the Supreme Court Ramiz Rizayev, dated 11 November 2010; available at: www.news.day.az.
[31] European Neighborhood Policy: Monitoring Azerbaijan' s Anti-corruption Committeemen's 2010, by Transparency Azerbaijan, May 2011, www.transparency.az
[32] Article 27, National Anti-corruption Action Plan for 2012-2015,
[33] The Law on Social Order, www.president.az

qəbul edilməsi öz növbəsində ictimai iştirakçılığla bağlı qanun layihəsinin [34] müzakirələrinə şərait yaratmışdır.

Son illər cəmiyyətin artan sosial fəallığının mühim bir xüsusiyyəti əhəmiyyətli dərəcədə internetdən məlumat yaymaq imkanı və sosial şəbəkələşmədir.

Respondentlərə ölkənin ümumi siyasi mənzərəsi ilə əlaqədar açıq sual ünvanlanmışdır. Respondentlərin bu açıq sualları cavabalandırması məcburi xarakter daşımırdı. Ölkənin siyasi mənzərəsi ilə əlaqədar respondetlərin qiymətləndirməsində qütbləşmə müşahidə olunur. Bəziləri hesab edir ki, ölkədə uğurlu daxili və xarici siyasəti fonunda iqtisadi inkişaf və siyasi sabitlik hökm sürür. Digər respondentlər isə qüsurlara diqqət çəkmişdir.: korrupsiyanın yüksək səviyyəsi, bazarda inhisarçılıq, siyasi azadlıqların olmaması, o cümlədən QHT-lərin qeydiyyatı ilə bağlı problemlərin yaşanması, azad mətbuatın olmaması, vətəndaş cəmiyyətinin regionlarda fəaliyyətinə süni maneələr yaradılması, insan hüquqlarının pozulması, icra hakimiyyətinin digər hakimiyyət qolları üzərində dominantlığı, 2013-cü il oktyabr ayında keçiriləcək prezident seçkiləri ərəfəsində vətəndaşların artan siyasi fəallığına qarşı hökumətin sərt reaksiyası və zəif müxalifətin olması. Bir respondent hətta belə qeyd etmişdir: "Azərbacyanda vahid siyasi mənzərə yoxdur. Siyasi vəziyyət hər gün dəyişir"

## 1.2. Sosial Vəziyyət

Azərbaycanda sosial norma və davranışları vətəndaş cəmiyyətinin inkişafı üçün həm əlverişsiz həm də əlverişsli hesab etmək olar. Əhali bir tərəfdən ictimai məsələlərə biganəlik göstərir [35], digər tərəfdən başqalarına qarşı yüksək tolerantlıq[36] nümayiş etdirir.

Ölkənin siyasi mənzərəsi ilə bağlı cavablarda qütbləşmə müşahidə olunsa da, sorğuda iştirak edən respondentlər sosial durum və sosial problemlər barədə mövqeləri çox yaxın olmuşdur. Respondentlərin fikirlərindən Azərbaycan cəmiyyətində iki əsas tendensiyanı müşahidə etmək mümkündür: Azərbaycan cəmmiyyətinin vertikal sosial stratifikasiyası (əhalinin varlı və kasıb təbəqəsi arasında təbəqələşmənin kəskinləşməsi) və Bakı ilə regionlar arasında artan iqtisadi və sosial uçurum. Digər əsas tendensiyalardan biri isə sürətli urbanizasiyadır və əhalinin payataxt Bakı və onun ətrafında cəmləşməsidir. Hökumət isə urbanistik axını əyalət şəhərlərinə yönəltməyə səylər göstərsə də, işsizlik, regionalarda təhsil səviyyəsinin aşağı olması, sosial inistitutların, eləcə də kəndlərdə infrastrukturun zəif olması urbanizasiyanın əsas köklü səbəbləri olaraq hələ də qalmaqdadır. Bütün bunlar regionlarda, xüsusən gənclər arasında psixoloji və sosial gərginliyin artmasına səbəb olur.

Respondentlərin fikrincə, sosial, səhiyyə və təhsil proqramları dövlət qurumları tərəfindən səmərəli təşkil edilmir, səbəblərdən biri də dövlət məmurlarının korrupsiyaya bulaşmasıdır. Buna görə də, vətəndaş cəmiyyəti inistitutlarının rolunun sosial xidmətlərin göstərilməsi və idarəedilməsi sahəsində dövlət qurumları ilə rəqabəti təşviq edilməlidir. Müsbət nümunə kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əlil

[34] The draft law has been designed by civil society experts to the order the National Council of Support to NGOs
[35] Civil Society Index, Country Report for Azerbaijan, 2009, www.civicus.org
[36] Психология толерантности в Азербайджане -3. Таир Фарадов, Южный Кавказ, Центральная Азия и СНГ в мировой печати, http://www.atc.az

uşaqların qayğı mərkəzlərinin yaradılması ilə bağlı qrandı QHT-lərə verməsini göstərmək olar.

Əhalinin əksəriyyət hissəsinin gəlirləri kölgə iqtisadiyyatında formalaşır. Hesab edirik ki, vətəndaş cəmiyyəti kölgə iqtisadiyyatı ilə bağlı araşdırmalara həvəsləndirlməli, sonda isə kölgə iqtisadiyyatının dövriyyəsinin azaltmaq istiqamətində müəyyən layihələrə cəlb olunmalıdırlar.

Vətəndaşların mülkiyyyət hüququnun pozulması əsas problemlərdən biri olara qalır və vətəndaş cəmiyyəti əhaliyə öz mülkiyyət hüquqlarını qorumaq istiqamətində yardım etməlidir.

## 1. 3. Dövlət və vətəndaş cəmiyyəti münasibətləri

*Hüquqi mühit və vergi sistemi*

2012-2013-cü ildə Parlament vətəndaş cəmiyyəti və medianın fəaliyyətini məhdudlaşdıran bir sıra qanunlar qəbul etmişdir. Son dəyişikliklərə görə,[37] qeydiyyat prosesi zamanı verdiyi yalnış məlumata görə QHT 4000 manat (5100 ABŞ dolları) məbləğində cərimə olunur. Qanunvericilikdə nəzərdə tutulan maddəni birmənalı başa düşmək çətindir, çünki qanun "yalnış məlumat" anlayışına aydınlıq gətirmir. Həmçinin hər hansı QHT rəsmi icazə olmadan 200 AZN-dən artıq maliyyə yardımı alsa qanun çərçivəsində böyük ölçüdə cərimələnə və əmlakı müsadirə oluna bilər. (fiziki şəxslər üçün 2500-5000 AZN, hüquqi şəxslər üçün 8000-15000 AZN məbləğdə )[38] [39]Qanuna edilən son dəyişiklik Ədliyyə Nazirliyində qrandların qeydiyyatı ilə bağlı mövcud praktikanı da leqallaşdırmışdır. [40] Bu qeydiyyatdan keçməmiş QHT-lərin kövrək vəziyyətinə səbəb olur. Belə ki, ilk növbədə müvafiq qanun aydın şəkildə göstərmir ki, qeydiyyatdan keçməmiş QHT-lər qrand almaqdan məhrumdur. Eyni zamanda, qeydiyyatdan keçməmiş QHT aldıqları qrandları Ədliyyə Nazirliyindən də qeydiyyatdan keçirə bilmirlər. Ümumilikdə, Azərbaycanın QHT-lərlə bağlı qanunvericiliyi beynəlxalq standartlarla uyuşmur [41] , eləcə də vətəndaş cəmiyyəti təşkilatları siyasət formalaşdırılmasında və ya hökuməti hesabatlı saxlamaq sahəsində zəifdirlər.[42]Bəzi tədqiqatların nəticələrinə görə, Azərbaycanda vətəndaş cəmiyyətinin ölkənin siyasi gündəminə təsir imkanları məhduddur.

Apardığımız sorğuda respondentlərin 30%-i qanunverici və normativ sənədləri QHT-lərin fəaliyyəti üçün əlverişli hesab etmir, respondentlərin 50%-i isə hüquqi rejimin QHT-lər üçün qismən əlverişli olduğunu qəbul edirlər. Bu onu göstərir ki, ölkədə QHT-

---

[37] Changes to the Code of Administrative Offences adopted in January 2012, www.president.az
[38]As per amendments to the Law on Grants and the Law on Non-Governmental Organizations of February 2013, www.president.az
[39] Amendments to the Code of Administrative Violations of February 2013, www.president.az
[40] As per amendments to the Law on Grants and the Law on Non-Governmental Organizations of February 2013, www.president.az
[41] Statement by Institute for Reporters' Freedom and Safety, Azerbaijani Government Should Stop Reprisals on Civil Society, dated 11 April 2013, http://www.irfs.org
[42] The Formal Political System in Azerbaijan, by Andreas Heinrich, Bremen, in Caucasus Analytical Digest, The Political System in Azerbaijan, No. 24, 11 February 2011, http://www.isn.ethz.ch/

lərin hüquqi rejiminin inkişaf etdirilməsinə hələ də ehtiyac vardır. Yalnız 17 % respondent QHT-lərin hüquqi rejiminin əlverişli olduğu qənaətindədirlər.

Sorğuda iştirak edən QHT-lərin 38 %-i vergi sistemindən narazıdırsa, respondentlərin 46 %-isə vergi sistemindən qismən razıdır. Yalnız 11 % respondent vergi sistemindən razıdır. Belə qənaətə gəlmişik ki, QHT-lərin təhkim olunduğu vergilərin azaldılmasına məqsədəuyğun olardı.

*QHT-lər üzərində hökumət nəzarətinin qiymətləndirlməsi*

Ümumilikdə, 23 % respondent hökumətin QHT-lərə həddən artıq müdaxiləsi olduğu qənaətindədirlər. Bununla belə, 23 % respondent bu fikirlə razılaşmır. Respondentlərin yarısından çoxu isə hesab edir ki, QHT-lərə hökumətin müdaxiləsi olmadan fəaliyyət göstərməkdə qismən azaddırlar. Buradan belə nəticə çıxarmaq mümkündür ki, ümumilikdə vətəndaş cəmiyyəti hökumətin müdaxiləsinə məruz qalır, lakin hamıya münasibətdə bu müdaxilə eyni dərəcədə deyildir.




*QHT-lərin mustəqilliyi*

Bu suala cavab birmənalı olmamışdır. Ümumilikdə respondentlərin 40 %-i son illər QHT-lərin mustəqilliyi ilə bağlı vəziyyətin pisləşdiyi qənaətindədir. 35 % respondent isə QHT-lərin vəziyyətinin daha yaxşı olduğu qənaətindədirlər. 24 % respondent isə vəziyyətin dəyişmədiyini bəyan edirlər. QHT-lərin müstəqilliyi ilə bağlı bugünkü vəziyyəti birmənalı qiymətləndirmək çətindir. Çünki hökumətin vətəndaş cəmiyyətinə münasibətdə kompeks siyasəti yoxdur, xüsusən regionlarda və paytaxtda fəaliyyət göstərən QHT-lərə münasibətdə fərqli siyasi münasibət mövcuddur.




Sorğuda respondentlərin 60 %-i Azərbaycanda vəkillik fəaliyyəti ilə məşğul olmaqda qismən azad olduqlarını bəyan edirlər. 22 % birmənalı olaraq azad, 14 % respondent isə azad olmadıqlarını qeyd ediblər. Vəkilik fəaliyyəti vətəndaş cəmiyyətinin əsas funkisyalarından biridir. Əgər 4 respondentdən 3-ü vəkillik fəalyyəti ilə məşğul olmaqda tam azad deyilsə, vətəndaş cəmiyyətinin bu problemə qarşı ən səmərəli cavabı qüvvələri səfərbər edərək şəbəkələşməsidir.

*Hökumət və vətəndaş cəmiyyəti dialoqu*

Respondentlərin 60 %-i hökumətin vətəndaş cəmiyyəti ilə hərdən bir dialoqa getdiyi qənaətindədirlər. 25 % respondent müntəzəm şəkildə hökumətlə dialoqa getdiklərini, 13 % respondent isə hökumətin vətəndaş cəmiyyəti ilə dialoqa getmədiyini bəyan edir. Hökumətin dialoqa getdiyinə inanan 85 respondentə hökumətlə dialoq təcrübəsinin olub olmadığı barədə növbəti alt-sual ünvanlanmışdır. Onlardan 62 % respondent isə öz təşkilatlarının hökumətlə dialoqlara hərdən bir, 27 % isə müntəzəm şəkildə cəlb olunduğunu qeyd etmişdir.




Digər alt-sual isə dövlətlə dialoq təcrübəsi olan QHT-lərə ünvanlanmışdır. (100-dən 76-ı) Bu sualın məqsədi hökumətin vətəndaş cəmiyyəti ilə dialoqa girməsinin niyyətini üzə çıxarmaq olmuşdur. Bu respondentlərin 42 %-i hesab edir ki, dövlət vətəndaş cəmiyyəti ilə dialoqa getməkdə maraqlıdır, lakin onlara etimad göstərmir. Onlardan 26 %-i hökumətin səmimi olduğunu, 22 % respondent isə hökumətin öz nüfuzunu artırmaq

üçün əməkdaşlığı təqlid etdiyi qənaətindədir. Ümumiyyətlə belə qənaətə gəlmək mümkündür ki, vətəndaş cəmmiyyəti ilə dövlət arasında davamlı dialoqun təşkili mümkündür.




*Koalisiya qurucluğu imkanları*

Mərkəzləşmiş və mütəşəkkil hökumətə nisbətdə respondentlərin əksəriyyət i- 74 %-i hesab edir ki, vətəndaş cəmiyyəti parçalanmışdır. 10 % respondent vətəndaş cəmiyyətinin strukturu ilə bağlı sualı cavablandıra bilmədiyini qeyd etmişlər. Təəccüblü deyil ki, respondentlərin 82 %-i korrupsiayaya qarşı mübarizəni koalisiya formatında məqbul hesab edir. Bu suala da respondentlərin 10-%-i cavablandıra bilmədiklərini qeyd etmişlər. Birgə fəaliyyətin imkanlarını nəzərə alaraq, QHT-lərin 78 %-i bu və ya digər koalisiyanın üzvüdürlər. Buna baxmayaraq, 80 % respondent yeni koalisiyaya qoşulmağa müsbət baxdığını bəyan etmişdir.




Korrupsiyaya qarşı mübarizənin uzunmüddətli proses olduğunu nəzərə alaraq, koalisiyaya qoşulmağa müsbət baxan 80 % respondentin 88 %-i (70 respondent) koalisiya formatında uzunmüddətli ödəlik götürməyə hazırdır.

Uğurlu koalisya formatı qurmaq üçün ən önəmli məqamlardan biri koalisiya üzvlərinin üstünlüklərini, mümkün töhfələrini və gözləntilərini təhlil etməkdir.

Sorğunun nəticələrinə görə QHT-lərin uğurlu koalisiya quruculuğu üçün eyni zamanda bir sıra üstünlükləri vardır. QHT-lərin əksəriyyəti ictimai vəkillik təcrübəsini (69 %), media ilə yaxşı münasibətləri (64 %), araşdırma təcrübəsini (50 %), təşkilati imkanlarını (49 %), korrupsiya sahəsində məsələləri barədə biliklərini (48 %), hökumətlə yaxşı

münasibətləri (34 %) əsas üstünlükləri hesab edirlər. Onlar arasında beynəlxalq təşkilatlarla və yerli icmalarla əlaqələr də üstünlük kimi göstərilmişdir. Bu suala 80 respondent cavab vermişdir.




Koalisiya üzvlərinin mümkün töhfələrinə gəldikdə isə QHT-lər yeni koalisiya qurulacağı təqdirdə verə biləcəyi əsas töhfələrini aşağıdakı sahələr üzrə vurğulamışlar: İctimai vəkillik təcrübəsi (65 %), araşdırma təcrübəsi (55 %), mediyaya çıxış (54 %) idarəetmə təcrübəsi (43 %), korrupsiya sahəsində biliklər (38 %), hökumətlə xoş münasibətlər (36 %). Bu sual 80 % respondentə ünvanlanmışdır və onların hamısı koalisiya quruculuğuna töhfə vermək niyyətindədirlər.




Koalisiyadan gözləntiləri əsasən iki qrupda cəmləşdirmək mümkündür: koalisiya üzvlərinin özləri üçün gözləntiləri: (təcrübə mübadiləsi, təşkilati bacarıqların artırmaq, yeni əməkdaşlıq imkanları tapmaq, kollektiv fəaliyyət, resursları səfərbər etməklə səmərəliliyi artırmaq və uzunömürlü olmaq, fandreyzinq imkanlarının artırmaq) və koalisiya üçün gözləntilər (vətəndaş cəmiyyətinin anti-korrupsiya təşəbbüslərinin artırmaq, vətəndaş cəmiyyətinin mütəşəkkilliyini artırmaq, QHT-Hökumət dialoquna töhfə vermək, ictimai rəyə təsir etmək, dövlət siyasətinin formalaşmasına və həyata keçirilməsinə təsir etmək). Bəzi respondentlər gələcək koalisiyanın təşkili və strukturu ilə bağlı bir sıra tövsiyələrini vermişdir və bunlar da gələcək koalisiyanın strategiya sənədində öz əksini tapmışdır. Koalisiyanın müstəqil və şəffaf olması və konsensus əsaslı qərar qəbul etməsi, bərabər təmsilçiliyi təşviq etməsi digər tövsiyələr sırasındadır. Ümumilikdə isə bu sual 80 % respondentə ünvanlanmışdır.

## 2. KORRUPSIYAYA QARŞI MÜBARIZƏ SAHƏSINDƏ IŞLƏYƏN QHT-LƏRIN STRUKTURU

### 2.1. Korrupsiyaya qarşı mübarizə sahəsində işləyən QHT-lərin növləri

Respondentlərin 1/3-i (31 %) birbaşa olaraq korrupsiyaya qarşı mübarizə sahəsində çalışırsa, bu respondentərdən 23 %-ində (7 QHT) korrupsiya ilə mübarizə əsas istiqamət kimi, 77 %-ində (24) isə istiqamətlərdən biri kimidir. Korrupsiya sahəsində çalışmayan 69 QHT-nin 50-i korrupsiya sahəsində çalışmağa razılıq vermişdir.




QHT-lərin 3/2-ə qədəri həm paytaxt, həm də rayonlarda fəaliyyət göstərir. Həmçinin QHT-lərin 15 %-i yalnız rayonlarda fəaliyyət göstərir və bu da imkan verir ki, bu tədqiqata regionlar da cəlb olunusun. QHT-lərin 17 %-i isə təkcə Bakı şəhərində fəaliyyət göstərir. Sorğu edilən QHT-lərin yarısından çoxu kiçik QHT-dir, onların 5-ə qədər işçi heyəti mövcuddur. QHT-lərin kiçik olmasına baxmayaraq, QHT-lərin əksəriyyəti təcrübəlidir. Onların 78 % -i 5-10 il ildir ki, fəaliyyət göstərməkdədir. QHT-lər müxtəlif maliyyə resurslarına malikdirlər.

**2.1.5. Sizin manatla orta illik büdcəniz nə qədərdir?**

Cavablandırılıb:100 Cavablandırılmayıb:0

| Cavab variantları | Cavablar | |
|---|---|---|
| **0-10,000** | **21%** | 21 |
| **10,000-50,000** | **27%** | 27 |
| **50,000-100,000** | **16%** | 16 |
| **100,000-dan çox** | **21%** | 21 |
| **Bilmirəm** | **15%** | 15 |
| Cəmi:100 | | 100 |

QHT-lər fəaliyyət istiqamətlərini bəzən bir sahə, bəzən bir neçə istiqamət üzrə qururlar. Onlarda əsasən ictimai maarifləndirmə, araşdırma-konsaltinq, təlim-təhsil, monitorinq, ictimai vəkillik, hüquqi yardım sahələri üstünlük təşkil edir. Sosial yardım və məhkəmə prosedurlarında dəstək sahələrində QHT-lərin fəaliyyəti az nəzərə çarpır. Bundan başqa, qadınlar, gənclər, bələdiyyə, kənd təsərrüfatı sahəsində çalışan QHT-lər də var.

**2.1.6. Sizin QHT əsasən hansı sahədə fəaliyyət göstərir? Cavablarınız 1-dən çox ola bilər.**

Cavablandırılıb:100 Cavablandırılmayıb:0




## 2.2. Vətəndaş cəmiyyətinin təşkili

*Maliyyə məsələləri*

Vətəndaş cəmiyyətinin təşəbbüslərinə özəl sektorun və vətəndaşların dəstəyi az olduğuna görə, Azərbaycanda QHT-lərin maliyyələşməsi əsasən iki mənbədən formalaşır. Sorğuda iştirak edən QHT-lərin çoxu əsasən xarici donorlardan, təxminən yarısı isə Hökumətdən maliyyələşir. Qərb ölkələrində özəl sektorun QHT sektorunda payı 40-50 %-ə qədər ölçülsə də, sorğuya əsasən Azərbaycanda QHT-lərin yalnız 17 %-i özəl sektordan maliyyələşir. Ümumikdə isə, yalnız 6 % QHT vətəndaşların ianələri hesabına maliyyələşir ki, bu da vətəndaşların QHT-lərə dəstəyinin az olduğunun göstəricisidir. Təxminən 30 % QHT özü-özünü maliyyələşdirir.

**2.2.1 Siz maliyyəni hansı mənbələrdən formalaşdırırsınız? Cavablarınız 1-dən çox ola bilər.**

Cavablandırılıb:100 Cavablandırılmayıb:0

| Cavab variantları | Cavablar | |
|---|---|---|
| Hökumətdən | 53% | 53 |
| Xarici donorlardan | 78% | 78 |
| Özəl mənbələrdən | 17% | 17 |
| Özünüzdən | 29% | 29 |
| Vətəndaşlardan | 6% | 6 |
| Bilmirəm | 2% | 2 |
| Cəmi:100 | | |

Sorğuda iştirak edən QHT-lərin yarısı donor tərəfindən büdcə məhdudiyyətlərinə (kiçik məbləğli qrandın verilməsi və büdcə xərclərinə məhdudiyyətlər qoyulması) məruz qaldıqlarını bəyan edirlər. Məsələn, onlardan 16 %-i bu suala birmənalı "bəli"cavab versə də, digər 34 % isə bu məsələnin "qismən" problem olduğunu bildirdilər. Bu sualı cavablandırmaqdan respondentlərin nəzərə çarpacaq hissəsi (12 %) boyun qaçırmışdır.

**QHT-lərin ehtiyacları və problemləri**

Bu sualı qoymaqda məqsədimiz Azərbaycanda QHT-lərin səmərəli fəaliyyətinə təsir edən əsas faktorları müəyyən etməkdir. Respondentlər maliyyə çatışmazlığı (54 %), əlverişsiz siyasi mühit (52 %), peşəkarların yetərincə olmaması (42 %) və ictimai etibarın az olmasını (37 %), ictimia məlumatlara çıxışın məhud olması (33 ) % və inkişaf etməmiş daxili prosedurları (25%) QHT-lərin əsas problemləri kimi görürlər.

**2.2.3. Korrupsiya ilə mübarizə aparan QHT-lərin əsas problemləri nədir? Cavablarınız 1-dən çox ola bilər.**

Cavablandırılıb:100 Cavablandırılmayıb:0

| Cavab variantları | Cavablar | |
|---|---|---|
| Maliyyə çatışmamazlığı | 54% | 54 |
| Peşəkarların yetərincə olmaması | 41% | 41 |
| Siyasi mühitin əlverişli olmaması | 51% | 51 |
| İctimai məlumatlara çıxışın məhdud olması | 33% | 33 |
| İctimai etibarın aşağı olması | 35% | 35 |
| İnkişaf etməmiş daxili idarəetmə prosedurları | 24% | 24 |
| Bilmirəm | 9% | 9 |
| Digər, zəhmət olmasa göstərin Ответы | 6% | 6 |
| Cəmi:100 | | |

İctimai və siyasi həyatda baş verən dəyişikliklər QHT-lərin öz fəaliyyətini peşəkar səviyyədə təşkil etməyi zəruri edir. Bu da onların mütəmadi olaraq təlimlərə cəlb olunmasını şərtləndirir. Bu tədqiqatın məqsədlərindən biri də məhz QHT-lərin təlim ehtiyaclarını üzə çıxarmaqdır. Sorğuda iştirak edən QHT-lərin 75 %-i təlimlərə ehtiyacı olduğunu qeyd etmişdir. Onlar əsasən hökumət fəaliyyətinin monitorinqi, korrupsiyaya qarşı mübarizə qanunvericiliyi, qanunvericilik təklifləri, fandreyzinq texnikaları və layihə yazma bacarıqları, siyasət təklifləri hazırlamaq və QHT-lərin idarə edilməsi və rəhbərliyi sahəsində təlimlərin keçirilməsinə ehtiyac duyurlar.

**Əgər cavab bəlidirsə, öz işlərini istədikləri kimi görmək üçün QHT-lərin hansı təlimlərə ehtiyacı var?**

Cavablandırılıb:75 Cavablandırılmayıb:25

| Cavab variantları | Cavablar | |
|---|---|---|
| Korrupsiyaya qarşı mübarizə qanunvericiliyi | 54,67% | 41 |
| Qanunvericilik təklifləri | 49,33% | 37 |
| Fandreyzinq texnikaları / layihə yazma bacarıqları | 42,67% | 32 |
| Media ilə münasibətlər | 25,33% | 19 |
| QHT – nin idarə edilməsi və rəhbərliyi | 26,67% | 20 |
| Siyasət təklifləri | 30,67% | 23 |
| Hökumətin fəaliyyətinə nəzarət və hesabat | 60% | 45 |
| Digər, zəhmət olmasa göstərir | 1,33% | 1 |
| Cəmi:75 | | |

## 2.3. Daxili Idarəetmə

*QHT-lərin idarəetmə təcrübəsi*

Sorğu həmçinin inzibati işçi heyətinin mövcudluğunu öyrənmək və daxili inzibati sənədləşmənin bütövlüyünü qiymətləndirmək məqsədi daşıyırdı. Sorğuya əsasən məlum oldu ki, QHT-lərin əksəriyyətində maliyyə meneceri, ofis meneceri vardır. Təxminən yarısında ictimai əlaqələr üzrə menecer və üçdən birində isə fandreyzer üzrə menecer vardır. İnsan resursları, keyfiyyətə nəzarət menecerlər isə QHT-lərdə azlıq təşkil edir.

QHT-lər daxili sənədləşmə üçün əsasən İş planı və Fəaliyyət planı (76 %), missiya və məqsədlərin bəyamnaməsi (71 %), uzunmüddətli strategiya (57 %), maliyyə və inzibati proseduralarından (54 %) istifadə edir. Az istifadə olunan sənədləri isə əxlaq və davranış qaydaları (38 %), kommunikasiya siyasəti (26 %), kadrlar siyasəti (25 %) və nəzarət və qiymətləndirmə planları (24 %) təşkil edir. Bəzi QHT-lərin fandreyzinq və gender siyasətləri də mövcuddur.

**2.3.2. Sizin QHT aşağıdakı daxili sənədləşmələrdən hansına malikdir? Zəhmət olmasa aidiyyəti üzrə olanları işarələyin**

Cavablandırılıb:100 Cavablandırılmayıb:0

| Cavab variantları | Cavablar | |
|---|---|---|
| Missiya və məqsədlərin bəyannaməsi | 71% | 71 |
| Uzun müddətli strategiya | 57% | 57 |
| Əxlaq və davranış qaydaları | 38% | 38 |
| Maliyyə və inzibati prosedurlar | 54% | 54 |
| Kadrlar siyasəti | 26% | 26 |
| Kommunikasiya siyasəti | 26% | 26 |
| Nəzarət və Qiymətləndirmə planı | 24% | 24 |
| İş planı və ya Fəaliyyət Planı | 76% | 76 |
| Bilmirəm | 5% | 5 |
| Digər, zəhmət olmasa göstərin | 7% | 7 |
| Cəmi:100 | | |

*Şəffaflıq*

QHT-lərin 51 %-i illik audit yoxlamasından mütəmadi olaraq keçir. Respondentlərin 12 %-i "Siz audit yoxlamasından keçirsinizmi? suala "bilmirəm" deyə cavablandırmışdır. Audit yoxlamasından keçən respondentlərin 72 %-i isə (51 %-dən 72 %-i) maliyyə hesabatlarını veb saytda və ya çap formatında ictimaiyyət üçün açıq elan edir. Ümumilikdə isə, sorğuda işirak edən QHT-lərin 1/3 həm audit yoxlamasından keçirlər, həm də maliyyə hesabatlarını ictimaiyyət üçün açıq elan edirlər. Bundan fərqli olaraq, respondentlərin 82 %-i illik fəaliyyət hesabatları tərtib edirlər. Onlardan 78%-i isə öz fəaliyyət hesabatlarını veb saytlarda və çap formatında ictimaiyyətə açıq elan etmişlər.

### 2.4. Vətəndaşların QHT-də təmsilçiliyi

Gənclər, qadınlar, milli və dini azlıqların maraqları vətəndaş cəmiyyəti tərəfindən yaxşı təmsil olunmuşdur. Belə ki, sorğuda iştirak edən QHT-lərinin 62 %-i gənclərin, 57% -i qadınların, 18 % etnik azlıqların, 6 %-i isə dini azlıqları maraqlarını təmsil edir. Ümumi əhalinin 47 %-ini[43] təşkil edən kənd icma nümayəndlərinin maraqları QHT-lərin 30 %-i tərəfindən təmsil olunur. Belə nəticəyə gəlmək mümkündür ki, kənd icma nümayəndələrinin maraqları digər sosial qruplara münasibətdə QHT-lər tərəfindən kifayət qədər təmsil olunmamışdır.[44] Respondentlərin digər 3/1 hissəsi (33 %)-isə digər sosial və iqtisadi qrupların maraqlarını təmsil edir. Onlar arasında əlillər, uşaqlar, aztəminatlı ailələr, müharibə qurbanları, kiçik və orta sahibkarlar, jurnalislər və elmi işçilər də daxil olmaqla peşə qrupları daxildir. Ümumikdə demək olar ki, cəmiyyətin əksər seqmentləri vətəndaş cəmiyyəti tərəfindən yaxşı təmsil olunmuşdur.

## 3. Korrupsiyaya qarşı mübarizə sahəsində çalışan QHT-lərin dəyərləri

### 3.1. VCT-nın daxilində demokratik təcrübə

Respondentlərin 86 %-i demokratiyanı təşkilat daxilində təşviq etdiklərini bəyan edirlər. Qəribə haldır ki, 14 % respondentdən 7 %-i demokratiyanı təşkilat səviyyəsində təşviq etmir, digər 7 %-i isə təşkilat daxilindəki idarəetmə formasından ümumiyyətlə xəbərsizdir. Ümumilikdə demokratiyanı təşviq edən təşkilalardan 83 %-də (72 təşkilat) isə təşkilatın lideri demokratik seçkilərlə seçilir.

QHT-lərin demək olar ki, hamısında formal demokratik strukturlarlar mövcuddur. Belə ki, QHT-lərin 95 %-ində idarə heyəti və ya himayədarlar şurası vardır. Növbəti sual ilə biz demokratik proseduraların təşkilat daxilində necə tətbiq olunduğunu aydınlaşdırmağa çalışdıq. Respondentlərə görə İdarə Heyəti və ya Himayədarlar şurası rübdə (42 %) və ayda bir dəfə (22 %) görüşürlər. Bundan başqa, İdarə Heyəti və ya Himayədarlar şurasının 17 % QHT-də illik, 12 % QHT-də isə istənilən zaman (12 %) çağrılmsı demokratik prosedurаların səmərəli şəkildə tətbiq olunmadığını göstərir.

---

[43] Demographic Indicators of Azerbaija, by State Statistical Committee of the Republic of Azerbaijan in 2012, (http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/Demografiya-2012.pdf):

Həmçinin QHT-lərin 84 %-i illik ümumi yığıncaq çağırır. Respondentlərin 7 % ümumi yığıncağın çağrılmadığını, 9 % isə ümumilikdə bu barədə bilmədiyini bəyan etməsi həssas məqam kimi qiymətləndirlə bilər.

# 4. Təsir

## 4.1. Dövlət siyasətinə təsir

